AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 40 (1500), 14 - 20 dekabr 2021-ci il
Qəzet 2001-ci ildən çıxır.

# Prezident İlham Əliyev "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib



Dekabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Əziz dostlar.

Əziz "Qarabağ" futbol klubunun nümayəndələri.

Sizi əldə edilmiş yeni nailiyyət münasibətilə ürəkdən təbrik edirəm. "Qarabağ" futbol klubu Azərbaycan azarkeşlərini, deyə bilərəm ki, bütün Azərbaycan xalqını bir daha sevindirib.

Bu qələbə bir daha onu göstərir ki, "Qarabağ" futbol klubu Azərbaycan futbolunun flaqman komandasıdır. Bu, birinci dəfə deyil ki, "Qarabağ" beynəlxalq yarışlarda böyük uğurlar qazanır, xalqımızı, ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Bu uğurlar təsadüfi deyil. Çünki bilirəm ki, klub rəhbərliyi, məşqçi heyəti, futbolçular həm yüksək məsuliyyət, peşəkarlıq göstərirlər, eyni zamanda, müntəzəm olaraq peşəkarlığı artırmaq, daha da yaxşı nailiyyətlər əldə etmək üçün yorulmadan çalışırlar.

Əlbəttə, sirr deyil ki, "Qarabağ" futbol klubunun adı sizin üzərinizə əlavə məsuliyyət qoyur. Siz həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi Zəfərdən sonra Qarabağ adını uca tutursunuz, bu adı bütün Avropa futbol məkanında təbliğ edirsiniz. Bir daha demək istəyirəm, nəzərə alsaq ki, uzun illər torpaqlarımız, o cümlədən Ağdam şəhəri işğal altında idi, hər qələbə, "Qarabağ" futbol klubunun hər tarixi addımı hər bir Azərbaycan vətəndaşını sevindirirdi. Əminəm ki, növbəti mərhələdə də siz komandaya xas olan əzmkarlıq və vətənpərvərlik göstərərək xalqımızı sevindirəcəksiniz.

*(ardı 2-ci səhifədə)*

## *"Qarabağ" futbol klubuna maliyyə dəstəyi göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

**S ə r ə n c a m ı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. UEFA Konfrans Liqasının qrup mərhələsində uğurla iştirak edərək növbəti mərhələyə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Qarabağ" futbol klubuna 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 dekabr 2021-ci il***

## Milli Olimpiya Komitəsində görüş

Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Yaponiyanın Azərbaycandakı səfiri Vada Cuniçi ilə görüşüb. Görüşdə Ç.Hüseynzadə Tokio Yay Olimpiya Oyunları haqqında təəssüratlarını bölüşərək, olimpiadanın yüksək səviyyədə təşkil olunduğunu qeyd edib. O, oyunların təhlükəsiz və uğurlu təşkili, həmçinin 27-si qızıl, 14-ü gümüş və 17-si bürünc olmaqla ümumilikdə 58 medal qazanan Yaponiya komandasının həm Tokio-1964 (29 medal), həm də Meksika-1968 (25 medal) olimpiadalarındakı nəticəni təkrarlayaraq yenidən 3-cü yerdə qərarlaşması münasibətilə təbriklərini çatdırıb.

Söhbət zamanı Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin 30 illik yubiley ili olan 2022-ci illə bağlı MOK-un bir sıra əməkdaşlıq təklifləri müzakirə olunub.

Səfir Vada Cuniçi Oyunlara dəstək məqsədilə MOK-un təşəbbüsü ilə iştirak etdiyi "Rəsmi idman geyiminin təqdimatı" və "Zəfər Günləri"nin onun üçün əhəmiyyətindən danışıb. O, Tokio Yay Olimpiya Oyunlarında Təşkilat Komitəsinin idmançıların sağlamlıqlarının qorunmasına nail ola bilməsini xüsusi qeyd edib.

Görüşdə MOK baş katibinin müavini Azər Əliyev və marketinq departamentinin rəhbəri Mehman Kərimov qarşılıqlı əməkdaşlıq məsələlərinə dair məlumat veriblər.

Təqdimatlardan sonra diplomat 2022-ci ildə Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin 30 illik yubileyi ili ilə əlaqədar planlaşdırdıqları tədbirlər planını MOK-un vitse-prezidenti Çingiz Hüseynzadəyə və baş katibin müavini Azər Əliyevə təqdim edib.

## Fərid Qayıbov Stolüstü Tennis Federasiyasının fəaliyyəti ilə tanış olub

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycan Stolüstü Tennis Federasiyasında olub. Federasiyanın fəaliyyəti ilə tanış olan nazir idmançıların məşq proseslərini izləyib, onlarla söhbət edib və məşqçilərlə fikir mübadiləsi aparıb. Federasiyanın vitse-prezidenti Fazil Məmmədov qarşıdakı yarışlar, hazırlıq və gələcək iş planı barədə məlumat verib. Yığma komanda üzvləri üçün yaradılmış şəraitlə tanışlıqdan sonra Fərid Qayıbov bir sıra tövsiyələr verib və idmançılara uğurlar arzulayıb.

Federasiya üzvləri ilə görüşdə nazir müavini Mariana Vasileva da iştirak edib.

## Gənclər və idman naziri "Qarabağ" klubunun bazasını ziyarət edib

Gənclər və idman naziri Fərid Qayıbov "Qarabağ" klubunun bazasında olub.

"Qarabağ"ın prezidenti Tahir Gözəl nazir Fərid Qayıbovu bazada futbolçular üçün yaradılmış şəraitlə tanış edib. Nazir Fərid Qayıbov çıxışında komandanın UEFA Avropa Konfrans Liqasında tarixi uğura nail olaraq, pley-off mərhələsinə yüksəlməsi münasibəti ilə təbrik edib, səmimi qarşılanmaya görə minnətdarlığını bildirib.

Tahir Gözəl nazir Fərid Qayıbova dəvəti qəbul etdiyi və "Qarabağ" barədə xoş sözlər səsləndirdiyi üçün təşəkkür edib.

## "Qarabağ" Fransa təmsilçisi ilə qarşılaşacaq




Dünən UEFA Konfrans Liqasında pley-off mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində təşkil olunan tədbirdə Azərbaycan təmsilçisi "Qarabağ"ın da rəqibi müəyyənləşib. Belə ki, komandamız Fransanın "Marsel" klubu ilə üz-üzə gələcək. "Qarabağ" ilk oyununu səfərdə, "Narıncı Velodrom" stadionunda keçirəcək.

Qeyd edək ki, qrup qaliblərinin birbaşa 1/8 finala yüksəldiyi Konfrans Liqasında pley-offda 16 klub qüvvəsini sınayacaq.

Lakin bu komandalardan biri hələ dəqiqləşməyib. Söhbət Tottenhem" - "Renn" görüşündən gedir.

Reqlamentə əsasən pley-offda qrup ikinciləri Avropa Liqasının üçüncü yer sahibləri ilə görüşəcək. İlk matç avroliqanı üçün yerdə başa vuran komandaların stadionlarında təşkil ediləcək.

Məlumat üçün bildirək ki, pley-off mərhələsində ilk matçlar gələn il fevralın 17-də, cavab qarşılaşmaları isə bir həftə sonra oynanılacaq. Mərhələni keçən tərəf Konfrans Liqasının 1/8 finalına yüksələcək.

**Püşkatmanın nəticələri aşağıdakı kimidir:**

***Konfrans Liqası***

**Pley-off**

**"Marsel" (Fransa) - "Qarabağ" (Azərbaycan)**
PSV (Niderland) - "Makkabi" (Təl-Əviv, İsrail)
"Fənərbağça" (Türkiyə) - "Slaviya" (Çexiya)
"Midülland" (Danimarka) - PAOK (Yunanıstan)
"Lester" (İngiltərə) - "Randers" (Danimarka)
"Seltik" (Şotlandiya) - "Bodo Qlimt" (Norveç)
"Sparta" (Çexiya) - "Partizan" (Serbiya)
"Rapid" (Avstriya) - "Vitess" (Niderland)/"Tottenhem" (İngiltərə)

## Olimpizm

### *Daha bir ölkə Pekin Olimpiadasını boykot edəcək*

ABŞ, Avstraliya, Böyük Britaniya və Kanadadan sonra Slovakiya da 2022-ci ildə Pekində keçiriləcək Qış Olimpiya Oyunlarının diplomatik boykotuna qoşulacaq. Ölkə prezidenti Zuzana Çaputova bu məqsədlə Pekinə səfər etməyəcək. Bu qərar Çində insan hüquqlarının pozulması ilə bağlı qəbul olunub.

Qeyd edək ki, Pekin-2022 Qış Olimpiya Oyunları gələn il fevralın 4-dən 20-dək keçiriləcək.

### *Beynəlxalq Paralimpiya Komitəsinə prezident seçilib*

Beynəlxalq Paralimpiya Komitəsinin (IPC) Baş Assambleyasının iclası keçirilib. Tədbirdə IPC-nin prezidenti vəzifəsinə seçkilər təşkil olunub. Braziliyalı funksioner Endryu Parsons yenidən qurumun rəhbəri seçilib. O, 2017-ci ildən bu vəzifədə çalışır.



Qeyd edək ki, 44 yaşlı Endryu Parsons 2005-2009-cu illərdə Amerika Paralimpiya Komitəsinə başçılıq edib. E.Parsons 2009-cu ildən 2017-ci ilədək isə Braziliya Paralimpiya Komitəsinin prezidenti olub.

# Prezident İlham Əliyev “Qarabağ” futbol klubunun üzvlərini qəbul edib

*(əvvəli 1-ci səhifədə)*



Avropa Konfrans Liqası turnirinin pley-off mərhələsinə çıxmaq doğrudan da böyük nailiyyətdir. Əlbəttə, biz səkkizdəbir oyuna birbaşa çıxa bilərdik, ancaq əfsuslar olsun ki, hakim ədalətsizliyi buna imkan vermədi. Mən bu sözü təsadüfən işlətmirəm: hakim səhvi yox, hakim ədalətsizliyi. Çünki bu biabırçı hadisəyə səhv demək düzgün olmaz. Eyni zamanda, bu, birinci dəfə deyil ki, “Qarabağ” futbol klubu Avropa yarışlarında belə açıq ədalətsizliklə üzləşir. Əvvəlki illərdə də dəfələrlə buna rast gəlmişik. Bu dəfə qrup mərhələsində. 2014-cü ildə həlledici oyunda son dəqiqələrdə vurulmuş təmiz qolu hakim saymadı və beləliklə, sizi növbəti mərhələdən məhrum etdi. O vaxt səhv etmirəmsə Zelinka familiyalı çexiyalı hakim belə bir biabırçı addım atmışdır. Çox təəssüf edirəm ki, Avropa futbol məkanında bu biabırçı ənənə davam edir. Bu dəfə də xorvatiyalı hakim Yoviç açıq-aydın bütün tamaşaçıların, televiziya tamaşaçılarının gözü önündə vurulmuş təmiz qolu saymadı. Buna səhv demək mümkün deyil. Çünki bu, Avropa turniridir. Bu, kənd turniri deyil, məhəllə turniri deyil, həyətlərarası turnir deyil. Bu, Avropa turniridir, buraya Avropanın ən peşəkar, ən təcrübəli hakimləri cəlb olunur və bu oyunlarda hakimlik edirlər. Necə ola bilər ki, qapı xəttindən ən azı bir metr keçən topu görməyəsən. Yaxşı, sən görmürsən, korsan, yan hakim də görmür, o da kordur? Bu korları necə yığıb doldurublar buraya?! Nə üçün məhz “Qarabağ”ın oyunlarında biz bu biabırçı mənzərə ilə üzləşirik. Mən bunun cavabını bilirəm, siz də bilirsiniz, Azərbaycan xalqı da bilir: ədalətsizlik, ikili standartlar, bizə, ölkəmizə, - təkcə sizə yox, - ölkəmizə qərəzli münasibət. Bunun cavabı budur. Əgər bir dəfə olsaydı, iki dəfə olsaydı, deyərdik ki, ola bilər, səhv olub. Hansısa təsadüfi hadisə nəticəsində baş verib. Yox, bu, sistem xarakterli problemdir.

Mən ümid edirəm ki, UEFA bu problemin aradan qaldırılması üçün əməli addımlar atacaq. Ümid edirəm ki, bu biabırçı hallara yol verən hakimlər cəzalandırılacaq. Əks təqdirdə, əgər onlara qarşı hər hansı bir cəza tədbiri tətbiq olunmasa, deməli, növbəti dəfə də biz bunun şahidi olacağıq. Növbəti dəfə də sizi haqlı qələbədən məhrum edəcəklər. Növbəti dəfə ədalətsizlik, ikili standartlar, ayrı-seçkilik davam edəcək.

Futbol və idman siyasətdən ayrı olmalıdır. Bunu bir çoxları deyir, amma əfsuslar olsun ki, bir çoxları da bu prinsipi pozur. Çünki idmanı siyasiləşdirmək, idmandan siyasi alət kimi istifadə etmək, idman nailiyyətlərini siyasi müstəviyə keçirmək cəhdləri kifayət qədər çox olub. Mən artıq 24 ildir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu illər ərzində dəfələrlə beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında bizə qarşı olan ədalətsizliklə rastlaşmışam. Son Olimpiya Oyunları istisna deyil. Əlbəttə ki, biz səssiz qalmamalıyıq.

Mən bilirəm ki, “Qarabağ” klubu, rəhbərlik, məşqçilər, həmişə özlərini çox ləyaqətlə aparırlar, bəzi başqa məşqçilər və klub rəhbərləri kimi hay-haray salmırlar, qalmaqal yaratmırlar, əl-qol açmırlar. Mən bunu təqdir edirəm. Güclü insan həmişə özünü nizamlı aparır, həmişə gücünü lazım olan halda işə salır və bunu mən alqışlayıram. Ancaq o demək deyil ki, hər dəfə bizə qarşı belə biabırçı hadisə baş versin. Ona görə əminəm Avropa futbol ailəsində qəbul edilmiş qaydalar əsasında lazımi hüquqi addımlar atılmalıdır ki, gələcəkdə belə hallar təkrarlanmasın.

Bununla paralel olaraq onu da deməliyəm ki, nə üçün mən buna bu qədər fikir verirəm. Bilin, hər bir Azərbaycan vətəndaşı kimi, o biabırçı halı görəndə mənim də ürəyim ağrıyır. Mən də ürəyimdə deyirdim, biz buna nə qədər dözməliyik. Nə vaxta qədər bu, davam edəcək. Biz hamımız yaxşı başa düşürük ki, bu, elə-belə hadisə deyil. Ya təlimatlanmış hakim bunu edir, ya da ki, özü hansısa fikirlər və duyğular əsasında bunu edir. Bunun başqa adı ola bilməz. Bunu görməmək mümkün deyil. Eyni zamanda, bu, bizi ruhdan salmamalıdır. Biz 28 il ərazisi işğal edilmiş ölkə kimi yaşamışıq. İyirmi səkkiz il dözüm göstərmişik, hazırlıq işləri aparmışıq, güc toplayırdıq və bu gücü topladıq, düşməni torpaqlarımızdan qovduq. Bu illər ərzində nə qədər ədalətsizliklərlə, nə qədər ikili standartlarla üzləşmişdik. Bu, bizi qətiyyən ruhdan salmadı, əksinə, məni prezident kimi daha da ruhlandırırdı, daha da əzmkar edirdi, daha qətiyyətli edirdi və bu tarixi missiyanı yerinə yetirmək üçün əlavə güc verirdi. Əminəm, bu ədalətsizlik sizə də əlavə güc verəcək, siz növbəti oyunlara daha böyük əzm və iradə ilə çıxacaqsınız, “Qarabağ” adını, Azərbaycan futbol ictimaiyyətinin adını uca tutacaqsınız.

Ağdam şəhəri nə gündədir, siz də görmüsünüz. İndi bütün dünya bunu görür. Artıq minlərlə insan - siyasətçi, deputat, ictimai xadim, jurnalist, xarici vətəndaş Ağdamda olub və bu dağıntıları görüb. Müharibənin başa çatmasından bir ildən çox vaxt keçir. İndi baxın, bir Avropa təşkilatı bu müsibət, bu fəlakət, bu faşizmlə bağlı bir söz deyib? Yox! Görməzliyə vururlar, sanki bu, heç olmayıb. İndi Ağdam şəhəri yoxdur, tamamilə dağıdılıb, talan edilib və hər tərəf minalanıb. Müharibə başa çatandan sonra biz artıq 200 nəfərə yaxın insanı ya itirmişik, ya da ki, onlar şikəst olub, əlil olub. Amma bir Avropa təşkilatı Ermənistanı bu müsibətə görə qınayıbmı? Yox! İşğal dövründə etnik təmizləməyə görə, Xocalı soyqırımına görə bir Avropa təşkilatı Ermənistanı qınayıbmı? Yox! Həqiqət budur, reallıq budur və əlbəttə ki, biz bu reallığı nəzərə almalıyıq, amma heç vaxt barışmamalıyıq. Necə ki, işğalla barışmamışdıq, ədalətsizliklə barışmamışdıq. Güc topladıq, düşmənə elə zərbə vurduq ki, bütün dünya bizim Qələbəmizlə bağlı artıq bir söz deyə bilmir və bütün dünya məcbur olub bizim tarixi Zəfərimizi qəbul edib. Çünki bunun başqa yolu yoxdur. Nəyə görə? Güc, iradə, birlik, həmrəylik və məsuliyyət. Siyasətdə, həyatda, idmanda bax, bu amillər hesab edirəm ki, hər bir insana, siyasətçiyə başucalığı gətirəcək. Bir daha demək istəyirəm ki, sizin qələbəniz, sadəcə, idman qələbəsi deyil. Çünki siz Ağdam şəhərini təmsil edirsiniz. Əminəm ki, gün gələcək biz Ağdamı dedivim kimi quracağıq, elə Ağdam quracağıq ki, bütün dünyaya örnək olacaq və siz ev oyunlarınızı Ağdamda keçirəcəksiniz, “İmarət” stadionunda keçirəcəksiniz, orada parlaq qələbələr qazanaraq, xalqımızı sevindirəcəksiniz.

Mən sizinlə üçüncü dəfə görüşürəm - 2014-cü ildə, 2017-ci ildə və bu dəfə. Nə üçün? Çünki siz ölkəmizə, xalqımıza qələbələr gətirirsiniz və çox istərdim ki, bizim digər futbol klublarımız sizin yolunuzla getsin və mən onlarla da görüşüm, onları da nailiyyətlər, uğurlar münasibətilə təbrik edim. Əminəm ki, bu da olacaq. Amma “Qarabağ” yenə də deyirəm, hələlik Azərbaycan futbolunun aparıcı komandası olaraq qalır. Sizə yeni mərhələdə uğurlar, nailiyyətlər, qələbələr arzulayıram. Bir daha sizi təbrik edirəm.

* * *

“Qarabağ” futbol klubunun prezidenti Tahir Gözəl dedi:

- Hörmətli Prezident, icazə verin, “Qarabağ” klubunun heyəti adından, “Qarabağ” sevərlər, fanatlar, ailəm, şəxsən öz adımdan bu gün bizi qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim. Ulu öndərimiz Heydər Əliyevin anım günündən bir gün sonra Sizin ziyarətinizdə olmaq bizə böyük bir şərəfdir, müqəddəs bir xatirədir.

Cənab Prezident, “Qarabağ” futbol klubu daha əvvəlki illərdə Sizin də qeyd etdiyiniz kimi, Qarabağdan olan köçkünlərimizin nidasını, Vətən həsrətini, torpağa haqlı tələbimizi Avropaya çatdırmaq, dünyaya çatdırmaq missiyasını öz üzərinə götürmüşdü və bu məsuliyyətlə böyük uğurlar qazandı. Amma bu il, cənab Prezident, çox fərqli bir ildir. Bu il Sizin çox möhtəşəm liderliyinizlə, fövqəladə cəsarətinizlə, Azərbaycan xalqının şücaəti, şəhidlərimizin müqəddəs fədakarlığı ilə möhtəşəm bir Qələbə qazanmış azad Qarabağı təmsil edən bir klub olaraq biz meydana çıxdıq. Cənab Prezident, çox zülm gördük, ədalətsizlik gördük, bir dəfə yox, bir neçə dəfə. Doğrudan da, bunu ağıla, fikrə gətirmək mümkün deyil ki, bu standartlarda necə oyun təşkil olunur və səs də çıxmır. Amma icazə verin, deyim ki, bizim mənəvi gücümüz Sizdən gəlir cənab Prezident, xalqımızdan gəlir “Qarabağ”a. Bizim öz daxili aləmimizdəki paklığımızdan gəlir, cənab Prezident. Biz heç vaxt unutmuruq ki, mədəniyyət mərkəzimiz Şuşada Ulu Öndərimizin “Şuşa mütləq bir gün bizim olacaq” sözlərindən sonra Sizin emosiyalarınıza, sevinc göz yaşlarınıza qoşulduq. Cənab Prezident, Siz məğrur duruşunuzla bizə ilham oldunuz və Allaha şükür, bu günlərə gəldik.

Cənab Prezident, biz birinci dəfə Sizinlə görüşəndə heç də qələbə qazanmamışdıq. Siz o gün bizə dediniz ki, mən sizi qalib sayıram, heç vaxt ruhdan düşməyin, davam edin. Dünyada elə bir klub yoxdur ki, üç dəfə rəhbərin qəbulunda olsun. Sizin bu mənəvi dəstəyinizdən sonra bizim öhdəmizə ancaq və ancaq uğur qazanmaq düşürdü və biz bunu yerinə yetirdik. Mən Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Allah Sizi qorusun, bizlərə çox görməsin. Bizlərə, xalqımıza olan diqqət və qayğınız daimi olsun, cənab Prezident. Çox sağ olun, Sizə çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, çox sağ olun.

“Qarabağ” klubunun baş məşqçisi Qurban Qurbanov dedi:

- Cənab Prezident, Sizi bütün məşqçilərimiz, bütün futbolçularımız adından bir daha salamlayıram və yenidən Sizin qəbulunuzda olmaq bizim üçün çox xoşdur. Mən çox istəyirdim ki, Sizi 44 günlük müharibədəki şanlı Zəfərimizdən sonra üzbəüz təbrik edim. Sizə bütün futbolçularımız adından, öz ailəm adından təşəkkür edirəm. Bu Qələbə xalqımızın gücünü göstərdi. İndiyədək nə qədər bizim güclü, bacarıqlı övladlarımız olmuşdursa, bundan sonra düşünürəm ki, onların sayı qat-qat çox olacaq. Əlbəttə, bizim hər dəfə bu qalibiyyətlərimizə belə dəyər verdiyiniz və bizə güc-qüvvət verdiyiniz üçün Sizə təşəkkür edirəm. İnanın, biz həmişə düşünmüşük ki, azarkeşlər üçün futbol oynayırıq, xalqımız, ölkəmiz üçün futbol oynayırıq. Həmişə çalışmışıq ki, özümüzü düzgün, doğru idarə edək, ən başlıcası, oyunda nizamlı, intizamlı aparaq. Hər dəfə də görəndə ki, Siz uğurlarımıza, bizim davranışımıza bu cür dəyər verirsiniz, inanın ki, məsuliyyətimiz, istəyimiz, gücümüz daha da çoxalır. Mən həmişə Sizin fikirlərinizi, bizə necə dəyər verdiyinizi futbolçulara çatdırıram. İnanın ki, bununla biz daha da inamlı oluruq. Son oyunda hakimin səhvindən sonra, elə orada mən öz müsahibəmdə bildirdim ki, bizə qarşı böyük bir ədalətsizlik olub. Amma bu, bizə daha da güc verir və bizi daha da ruhlandırır. Onların qarşısında bunu söylədim. Biz bu cür ədalətsizlikləri dəfələrlə görmüşük. Ancaq öz istəyimizlə, xarakterimizlə, birliyimizlə bundan sonra da belə daha inamlı və daha da ürəkli olmağa çalışacağıq. Həqiqətən bizim üçün çox xoş oldu. Çox sağ olun ki, bir daha bizi qəbul etdiniz və belə dəyər verdiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Biz futbolçu olaraq, “Qarabağ” klubu olaraq həmişə Sizin yanınızdayıq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Çox sağ olun. Mən bir daha sizə təşəkkürümü bildirirəm, yeni uğurlar, qələbələr arzulayıram.

Tahir Gözəl: Cənab Prezident, icazənizlə, Sizə hədiyyəmiz də var. Bu, Konfrans Liqasında komandanın geyimidir.

Prezident İlham Əliyev: Hədiyyəniz də var, çox yaxşı. Çox sağ olun.

Futbolçuları təbrik edən dövlətimizin başçısı dedi: O qolu sən vurmusan deyəsən “İnter”ə. Saymadılar. Təbriklər. Sən də qol vurmusan, saymadılar. Sən də yaxşı qapıçısan, cəsarətlə qabağa gedirsən.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycanın şahmat ictimaiyyəti ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

Azərbaycan şahmat ailəsinin nümayəndələri Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib. Azərbaycan Şahmat Federasiyasının (AŞF) prezidenti Mahir Məmmədov, federasiyanın birinci vitse-prezidenti Faiq Həsənov, İcraiyyə Komitəsinin, kişi və qadın şahmatçılardan ibarət milli komandaların üzvləri Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri qoyub.

Federasiyanın prezidenti Mahir Məmmədov jurnalistlərə açıqlamasında ölkəmizdə şahmatın inkişafında və şahmatçıların yetişməsində ulu öndər Heydər Əliyevin əvəzsiz rolunu xüsusi qeyd edərək deyib: "Ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmək hər bir şahmatçımızın mənəvi borcudur. Azərbaycanda zəngin tarixə malik şahmat ötən əsrin 70-ci illərində



inkişaf etməyə başlayıb. Müstəqilliyin bərpasından sonra bütün sahələrdə olduğu kimi, idmanın bu növünə də xüsusi diqqət yetirildi. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikada şahmat məktəbləri tikilməyə başladı. Azərbaycanda idmanın, o cümlədən şahmatın inkişafında və bugünkü nailiyyətlərində, xüsusən də kişilərdən ibarət milli komandamızın üçqat Avropa çempionu adını qazanmasının əsasında Heydər Əliyevin diqqət və qayğısı dayanır".

Ulu öndər Heydər Əliyevin azyaşlı şahmatçılarımızı qəbul edərək onların inkişafı ilə bağlı mühüm tapşırıqlar verdiklərini xatırladan M.Məmmədov deyib: "İndi həmin uşaqlar dünyanın sayılıb-seçilən yüksək reytinqli qrossmeysterləridir. Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə şahmatın inkişafını daim diqqət mərkəzində saxlaması, Azərbaycanın bütün bölgələrində şahmat məktəblərinin açılması yeni-yeni istedadların üzə çıxarılmasında və onların irimiqyaslı yarışlarda ölkəmizi layiqincə təmsil etmələrində mühüm rol oynayıb. Görülən işlərin nəticəsidir ki, bu gün respublikamızın adı şahmatın ən yüksək səviyyədə inkişaf etdiyi ölkələr sırasında çəkilir. Azərbaycan şahmat məktəbinin yetirmələri istər uşaq və yeniyetmələr, istərsə də gənclər və böyüklər arasında bir çox mötəbər beynəlxalq yarışda, o cümlədən Avropa və dünya çempionatlarında, klublararası qitə birinciliklərində qalib və mükafatçılar sırasında yer tutur, fəxri kürsüdə təbrikləri qəbul edirlər. Onların qələbələri şərəfinə müxtəlif ölkələrdə Azərbaycan bayrağı ucaldılır, dövlət himnimiz səsləndirilir. Ona görə də ulu öndərimiz Heydər Əliyevin şahmata qayğısı daim yaddaşımızda qalacaq".

Federasiya prezidenti vurğulayıb ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan şahmata diqqət və qayğı siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının Sərəncamı ilə 2009-2014-cü illərdə şahmatın inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi ölkəmizdə idmanın bu növünün tərəqqisində yeni mərhələ oldu.




# Güləş Federasiyasına yeni prezidenti seçilib

Dekabrın 8-də Azərbaycan Güləş Federasiyasının (AGF) ümumi yığıncağının növbədənkənar iclası keçirilib. Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, toplantı Gənclər və İdman Nazirliyinin inzibati binasında təşkil olunub.

Tədbiri giriş sözü ilə açan gənclər və idman naziri Fərid Qayıbov yığıncaq iştirakçılarını salamlayaraq onlara uğurlar arzulayıb. Nazir güləşin ölkənin ən populyar idman növlərindən biri olduğunu, bu növdə böyük uğurlar qazanıldığını və nailiyyətlərin bundan sonra da davam edəcəyinə inandığını bildirib.

Mandat komissiyasının üzvləri və iclasın gündəliyi təsdiq olunduqdan sonra AGF-nin baş katibi Orxan Məmmədov 2018-2021-ci illərdə güləşdə qazanılan nəticələrlə bağlı hesabatı təqdim edib.

Daha sonra səsvermə yolu ilə iqtisadiyyat naziri Mikayıl Cabbarov AGF-yə üzv seçilib. Bundan sonra M.Cabbarovun federasiyanın prezidenti vəzifəsinə namizədliyi irəli sürülüb. Səsvermənin nəticələrinə əsasən, M.Cabbarov növbəti 4 il müddətinə Azərbaycan Güləş Federasiyasının prezidenti seçilib.

Səsvermə yekunlaşdıqdan sonra AGF-nin yeni prezidenti çıxış edib. Göstərilən etimada görə federasiya üzvlərinə təşəkkür edən M.Cabbarov güləşin milli idman növü olduğunu, bu sahədə yüksək nəticələr qazanıldığını, bütün çətinliklərə baxmayaraq federasiyanın son 4 ildə uğurla fəaliyyət göstərdiyini qeyd etməklə yanaşı, qarşıdakı 4 ildə güləşin ənənələrinin, kütləviliyinin qorunmasının, uğurları davam etdirməyin vacibliyini diqqətə çatdırıb.

Daha sonra Dünya Güləş Birliyinin Büro üzvü Namiq Əliyev AGF-nin vitse-prezidenti seçilib. AGF-nin yeni prezidentini təbrik edən N.Əliyev güləşdə nəticələrin bundan sonra daha da yüksələcəyinə inandığını deyib. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək güləşin böyük potensiala sahib olduğunu vurğulayıb və federasiyanın prezidentinə və vitse-prezidentinə məsul vəzifədə uğurlar arzulayıb.

# Badminton Federasiyasında yeni təyinat

Azərbaycan Badminton Federasiyasının ümumi yığıncağının növbədənkənar iclası keçirilib. İclasda çıxış edən gənclər və idman naziri Fərid Qayıbov konfrans iştirakçılarını salamlayaraq, onlara uğurlar arzulayıb. Sonra Azərbaycan Badminton Federasiyasının idarə heyətinə seçki keçirilib. "Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov səsvermə nəticəsində federasiyanın yeni prezidenti seçilib. Aynur Səmədova və Emin Maqsudov İdarə Heyətinin sədr müavinləri, Rəşad Kərimov və Mirzə Orucov isə üzvləri seçiliblər.




İclasda Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Badminton Federasiyasının sabiq prezidenti Mikayıl Cabbarov çıxış edərək federasiyanın yeni rəhbərliyini təbrik edərək uğurlar arzulayıblar.

## Abilimpiya hərəkatı və Uşaq paralimpiyasının inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin və Azərbaycan Milli Abilimpiya Federasiyasının prezidenti İlqar Rəhimov və UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Aleks Heikens arasında görüş keçirilib. Görüş zamanı İ.Rəhimov Abilimpiya hərəkatı və Uşaq paralimpiyası haqqında və UNICEF-in Azərbaycan nümayəndəliyi ilə Azərbaycan Milli Paralimpiya Komitəsi və Azərbaycan Milli Abilimpiya Federasiyası arasında gerçəkləşmiş layihələr barədə məlumat verib və dəstəklərinə görə təşəkkürünü bildirib.

İ.Rəhimov Rusiya Abilimpiya Mərkəzindən dəvət olunmuş ekspert və nümayəndələrin iştirakı ilə təşkil olunmuş sınaq yarışı haqqında geniş məlumat verib. Səfər çərçivəsində imzalanan memerandumun və keçirilən təlimlərin Abilimpiya hərəkatının inkişafında önəmli rol oynayacağını vurğulayıb. Həmçinin İ.Rəhimov qeyd edib ki, qazilərin həm idmana həm də abilimpiya hərəkatına cəlb edilməsi bizim üçün aktual mövzulardan biridir. Aleks Heikens isə öz növbəsində görüş üçün təşəkkürünü bildirib, Abilimpiya hərəkatının fiziki məhdudiyyətli uşaq və gənclərin cəmiyyətə inteqrasiyası və özlərini inkişaf etdirməsi üçün prioritet mövzulardan biri olduğunu qeyd edib. Görüşdə həmçinin, Azərbaycan Milli Paralimpiya Komitəsinin Baş katibi Kamal Məmmədov və Milli Abilimpiya Federasiyasının vitse-prezidenti Rüfət Hacılı da iştirak edib.

## Boksçumuz Serbiyada beynəlxalq turnirdə qüvvəsini sınayacaq




Sabah Serbiyanın Loznitsa şəhərində boks üzrə beynəlxalq turnir start götürəcək.

Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, yarışda ölkəmiz bir idmançı ilə təmsil olunacaq. Belə ki, millimizin üzvü Mirşərif Kazımzadə 75 kiloqram çəki dərəcəsində mübarizə aparacaq.

Qeyd edək ki, yarışın püşkatma mərasimi bu gün təşkil olunacaq.

## AMADA rəsmisi Avropa Şurasında yeni yaradılan komitəyə sədrlik edəcək

***Azərbaycanın Milli Antidopinq Agentliyinin (AMADA) direktoru, Avropa Şurasının gender bərabərliyi üzrə məruzəçisi Şəfəq Hüseynli Avropa Şurasında yaradılan gender bərabərliyi üzrə xüsusi komitəyə sədrlik edəcək.***

Xüsusi komitə Ş.Hüseynlinin müəllifi olduğu "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsini daha əhatəli formada həyata keçirmək və onun icrasını dəstəkləmək məqsədilə yaradılıb. Komitənin yaradılması ilə bağlı Ümumdünya Antidopinq Agentliyi üzrə xüsusi Avropa Komitəsinin (CAHAMA) noyabrın 16-17-də keçirilən 55-ci iclasında razılıq əldə edilib. Belə ki, layihənin həm CAHAMA, həm də Avropa Şurasının Antidopinq Konvensiyasının monitorinq qrupu çərçivəsində həyata keçirilməsi və bunun üçün xüsusi komitənin yaradılması məqsədəuyğun hesab edilmişdi. Beləliklə, antidopinq sahəsində gender bərabərliyi üzrə xüsusi komitənin əsasnaməsi hazırlanaraq bütün üzv dövlətlərə təqdim edilib. Ş.Hüseynlinin sədrliyi ilə komitənin yaradılması üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənib.

Komitənin tərkibi sədr Ş.Hüseynli, CAHAMA və Avropa Şurasının Antidopinq Konvensiyasının monitorinq qrupunun təyin etdiyi 6 ölkənin nümayəndələrindən, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin, Avropa Şurası Parlament Assambleyasının, onun Bərabərlik və qeyri-diskriminasiya komitəsinin, İnsan hüquqları və gender bərabərliyi departamentinin, "İdman haqqında genişləndirilən hüdudlu saziş"in (EPAS) və İdman konvensiyaları bölməsinin nümayəndələrindən, habelə dəvət edilən müşahidəçi və ekspertlərdən ibarət olacaq.

Komitə "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin icrası çərçivəsində antidopinq təşkilatlarında və antidopinq üzrə dövlətlərarası qurumlarda gender balansı haqqında məlumatın toplanmasını həyata keçirəcək, təsis sənədlərinin və daxili qaydaları təhlil edəcək, aşkarlanan uyğunsuzluqların aradan qaldırılması, habelə gender bərabərliyinin gücləndirilməsi üçün tövsiyələr hazırlayacaq. Komitə layihənin səmərəli şəkildə həyata keçirilməsi üçün Avropa Şurasının aidiyyəti digər komitələri, qrupları və üzv dövlətləri ilə əməkdaşlıq edəcək. Komitənin fəaliyyətinin və "Antidopinq sahəsində gender bərabərliyinin gücləndirilməsi" layihəsinin icrasının yekunlarına dair hesabat və tövsiyələr hazırlanaraq Avropa Şurası Nazirlər Komitəsinə təqdim ediləcək.

Ş.Hüseynlinin müəllifi olduğu bu layihə Avropa Şurası Nazirlər Komitəsinin noyabrın 24-də keçirilən iclasında dəstəklənib və CAHAMA-nın 2022-2025-ci illər üzrə əsasnaməsinə daxil edilib.

## Olimpiya mükafatçımız Klublararası Avropa çempionatında gümüş medal qazandı

Fransanın paytaxtı Parisdə keçirilən cüdo üzrə Klublararası Avropa çempionatına yekun vurulub. Azərbaycan cüdoçusu Rüstəm Orucovun (73 kq) çıxış etdiyi Serbiyanın "Srvena Zvezda" komandası yarışda gümüş medala layiq görülüb. Bu barədə R.Orucov özünün "Instagram" səhifəsində paylaşım edib. Rio-2016 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı qazanılan uğura görə komanda yoldaşlarına təşəkkürünü bildirib: "Belə gözəl insanlarla tanış olduğum üçün çox şadam. Gələn il qızıl medallarımızı alacağıq!"



## *Azərbaycan kuboku yarışında ən güclü cüdoçular müəyyənləşdi*

Fövqəladə Hallar Nazirliyinin Hövsan qəsəbəsində yerləşən "Xilasedici" İdman-Sağlamlıq Mərkəzində cüdo üzrə qadınlar və kişilər arasında Azərbaycan kuboku yarışı keçirilib. Koronavirus pandemiyası səbəbindən ölkədə mövcud olan karantin rejimi ilə əlaqədar azarkeşsiz keçirilən yarışda respublikamızın 52 şəhər və rayonundan 57 qadın və 250 kişi olmaqla, ümumilikdə 307 cüdoçu iştirak edib.

Yarışın ilk günündə qadınlar arasında 48 kq, 63 kq, kişilərin yarışında isə 60 kq, 81 kq çəki dərəcələrində ən güclülər müəyyənləşib. Belə ki, Aydan Vəliyeva (48 kq) və Aytac Qardaşxanlı (63 kq) qadınların turnirində birinci yeri tutublar. Kişilər arasında isə Balabəy Ağayev (60 kq) və Elcan Hacıyev (81 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar.

Turnirin ikinci günündə 4 çəki dərəcəsi üzrə qarşılaşmalar keçirilib. Belə ki, qadınlar 52 kq, 70 kq, kişilər isə 66 kq və 90 kq çəki dərəcələrində güclərini sınayıblar. Qadınlar arasında Səbinə Əliyeva (52 kq) və Günel Həsənli (70 kq) qalib adına layiq görülüblər. Kişilərin yarışında isə Kəramət Hüseynov (66 kq) və Rüfət İsmayılov (90 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

Yarışın sonuncu günündə qadınlar 57 kq, 78 kq və +78 kq, kişilər isə 73, 100 kiloqram və +100 kq çəki dərəcələrində mübarizə aparıblar. Qadınların yarışında Fidan Əlizadə (57 kq), Aytəkin Paşazadə (78 kq) və Nərmin Əmirli (+78 kq) qalib adını qazanıblar. Kişilər arasında isə Nəriman Mirzəyev (73 kq), Adil Kərimli (100 kq) və İmran Yusifov (+100 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

Azərbaycan kubokunda ümumi nəticəyə görə "Neftçi" İdman Klubu birinci yerə layiq görülüb. "Atilla" İdman Klubu ikinci, "Təhsil" Uşaq Gənclər İdman Sağlamlıq Mərkəzi (Sumqayıt şəhəri) üçüncü yerə sahib çıxıb. Qalib və mükafatçılar diplom, medal və kuboklarla təltif olunublar.

## *Yeniyetmə cüdoçular federasiya kuboku yarışında güclərini sınayıblar*

Dekabrın 10-12-də Bakı klubları arasında U-18 yeniyetmələrin Azərbaycan Cüdo Federasiyası (ACF) kuboku yarışı keçirilib.



Fövqəladə Hallar Nazirliyinin Hövsan qəsəbəsində yerləşən "Xilasedici" İdman-Sağlamlıq Mərkəzində təşkil olunan yarışda paytaxtın 39 klubundan 497 yeniyetmə cüdoçu iştirak edib.

Turnirin son günündə - dekabrın 12-də əvvəlcə Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra yarışa start verilib. Turnirdə Bakı klubları arasında ümumi hesabda 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin komandası birinci yerə layiq görülüb. İkinci pillədə 1 nömrəli Respublika İdman Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbi, üçüncü yerdə isə "Neftçi" idman klubunun yetirmələri qərarlaşıblar.

Müxtəlif çəki dərəcəsi üzrə oğlan və qızlar arasında keçirilən yarışda qalib və mükafatçılara diplom, medal və kuboklar təqdim olunub.

Turnir koronavirus pandemiyası səbəbindən ölkədə davam edən karantin rejimi ilə əlaqədar olaraq, azarkeşsiz keçirilib.

## *Hakimlərimiz "Avropa Gimnastikasının fəxri hakimi" adını aldılar*

Gimnasika növləri üzrə ixtisaslamış bir sıra Azərbaycan hakimləri "Avropa Gimnastikasının fəxri hakimi" adına layiq görülüblər. Avropa Gimnastikasının məlumatına əsasən sözügedən fəxri ada layiq görülmüş hakimlər sırasında bədii gimnastika, kişi idman gimnastikası və tamblinq üzrə təmsilçilərimiz yer alıb. Bunlar bədii gimnastika üzrə beynəlxalq dərəcəli hakim, Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bədii gimnastika üzrə Texniki Komitəsinin üzvü Natalya Bulanova, kişi idman gimnastikası üzrə beynəlxalq dərəcəli hakim Rza Əliyev və tamblinq üzrə beynəlxalq dərəcəli hakim Adil Hüseynzadədir.

Qeyd edək ki, "Fəxri Hakim" mükafatı ideyasını Avropa Gimnastikası ötən il irəli sürmüşdü. Bu mükafat ən azı üç Olimpiya dövrü ərzində Avropa Gimnastikasına aid yarışların uğuruna töhfə vermiş hakimlər üçün nəzərdə tutulub.

Fəxri hakim adına layiq görülmüş bütün şəxslərə diplom və yaxa nişanı təqdim olunacaq.

## Gimnastımız Polşada birinci oldu

Polşanın Zabrze şəhərində qadın idman gimnastikası üzrə "Barborka Cup 2021" adlı beynəlxalq turnir keçirilib. Azərbaycan Gimnastika Federasiyasından verilən xəbərə görə, turnirdə ölkəmizi Nazənin Teymurova, Məryəm Musayeva və Duyğu Məcidzadə təmsil ediblər.

Gənclər arasında iştirak edən N.Teymurovanın çıxışı uğurlu olub. O, çoxnövçülükdə hakimlərdən 48.665 xal alaraq, fəxri kürsünün birinci pilləsində yer alıb.

Onun komanda yoldaşları Duyğu Məcidzadə və Məryəm Musayeva çoxnövçülük yarışında müvafiq olaraq 6-cı və 9-cu yerlərdə qərarlaşıblar.



## Komandalarımızın Avropa Liqasındakı rəqibləri müəyyənləşdi

Voleybol üzrə Avropa Liqasının püşkü atılıb. Azərbaycanın kişilərdən və qadınlardan ibarət yığmalarının 2022-ci ildəki turnirdəki rəqibləri bəlli olub.

Qadın voleybolçulardan ibarət millimiz Qızıl Avropa Liqasında C qrupunda Ukrayna, Macarıstan və Rumıniya ilə oyunlarda qüvvəsini sınayacaq.

Yığmamız mükafatlar uğrunda mübarizə aparmaq üçün qrup qalibi olmalıdır. İki dövrəlik dairəvi sistemli qrup mərhələsindən sonra birinci yeri tutanlar və meydan sahibi "Dördlər finalı"nda yarışacaqlar. Meydan sahibi qrupunda qalib olarsa, ikinci yer həlledici raundda oynayacaq. Qadınların yarışında turnirə Ukrayna ev sahibliyi edəcəyindən millimiz bu rəqibdən sonra qrup ikincisi də ola bilər.

Kişi voleybolçularımız Gümüş Avropa Liqasında çıxış edəcək. Komandamız B qrupunda Macarıstan və Finlandiya ilə mübarizə aparacaq. Burada iki qrupda keçiriləcək mərhələdən sonra Macarıstan "Dördlər finalı"nı qəbul edəcək.

Qeyd edək ki, yarışa 2022-ci il mayın 25-də start veriləcək.

## Pəhləvanlar Azərbaycan çempionatında yarışıblar

Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçirilib. Milli komandalara seçim xarakteri daşıyan ölkə birinciliyinin ilk günündə - 55 kq, 60 kq, 63 kq, 67 kq, 72 kq, 77 kq və 82 kq çəki dərəcələrində yunan-Roma güləşçiləri xalça üzərinə çıxıblar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda İbrahim Nurullayev (55 kq), Elmir Əliyev (60 kq), Murad Məmmədov (63 kq), Namaz Rüstəmov (67 kq), Ülvi Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq) və Tuncay Vəzirzadə (82 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. İkinci yarış günündə klassik güləşdə 87 kq, 97 kq və 130 kq, sərbəst güləşdə isə 57 kq, 61 kq, 65 kq və 70 kq çəki dərəcələrində medalçıların adlarına aydınlıq gəlib.

Yunan-Roma güləşi yarışlarında İslam Abbasov (87 kq), Orxan Nuriyev (97 kq) və Sərxan Məmmədov (130 kq) qızıl medala sahib olublar. Sərbəst güləşçilərin mübarizəsində isə Əfqan Xaşalov (57 kq), İslam Bazarqanov (61 kq), Zirəddin Bayramov (65 kq) və Davud İbrahimov (70 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışın sonuncu günündə 74 kq, 79 kq, 86 kq, 92 kq, 97 kq və 125 kq çəki dərəcələrində ölkənin ən güclü sərbəst güləşçiləri müəyyənləşib.

Yarışda Turan Bayramov (74 kq), Hacımurad Ömərov (79 kq), Orxan Abasov (86 kq), Abdulcəlil Şabanov (92 kq), Məhəmmədxan Məhəmmədov (97 kq) və Giorgi Meşvildişvili (125 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medallara sahib çıxıb.

Qeyd edək ki, ölkədə davam edən karantin rejimi ilə əlaqədar olaraq Azərbaycan çempionatı azarkeşsiz keçirilib.



## İlin qalibləri Bakı Olimpiya Stadionunda müəyyənləşdi



İdman Araşdırmalar Mərkəzinin "İlin qalibləri-2021" layihəsinin mükafatçıları müəyyənləşib. Qaliblərin adları Bakı Olimpiya Stadionunda keçirilən tədbirdə açıqlanıb. Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov "İlin idman xadimi" seçilib. "Qarabağ" klubunun hücumçusu Abdullah Zubir "İlin əcnəbi futbolçusu", "Neftçi"nin heyətində çıxış edən Emin Mahmudov "İlin futbolçusu" nominasiyalarında fərqləniblər. Titullu karateçimiz İrina Zaretska "İlin idmançısı" olub.

"Qarabağ" klubu "İlin komandası", Qurban Qurbanov isə "İlin baş məşqçisi" seçilib. "İlin idman yarışı" nominasiyasında Avro-2020-nin Bakıda keçirilmiş dörd oyunu respondentlərin daha çoxunun səsini toplayıb.

Mütəxəssis rəyi

***Hər hansı bir idman növü üzrə yüksək peşəkar məşqçi olmaq üçün ancaq ali təhsil alıb, diplom əldə etmək kifayət deyil. Bu işin bir tərəfidir. Ali təhsil almaq işin başlanğıcıdır. Əsas işlər bundan sonra başlayır. Ali məktəbdə əldə edilən biliyi, bacarığı təcrübi işdə, həyatda tətbiq etmək lazımdır. Bunun üçün məşqçi, yaradıcılığı ilə yanaşı, bir çox keyfiyyətləri özündə birləşdirməlidir. Bunlardan biri işə həvəs və özünə tələbkarlıqdır. Məşqçi pedaqoqika, anatomiya, idman fiziologiyası, gigiyena, psixologiya və s. kimi elmləri kifayət qədər bilməlidir. O, idman sahəsinə daim yeniliklər axtarmalı, öz işini mükəmməl bilməli, idmançılarda yüksək əhval-ruhiyyə yaratmağı bacarmalıdır.***

# Keçirilən məşqlər uşaqlar üçün maraqlı olmalıdır



Unutmaq olmaz ki, təlimdə tərif də olmalıdır, tənqid də. Müşahidələr göstərir ki, bunların hər hansı birinin ifrat dərəcədə olması həm öyrənənə, həm də öyrədənə gec-tez öz mənfi təsirini göstərir. Bunu müəllimim bizə tez-tez deyərdi. O, deyərdi ki, məşq prosesində uşaqların iki əsas vacib məsələni (keçirilən məşqin məqsədi; Məqsədə çatmağın ən optimal, ən əsas yolları) aydın şəkildə dərk edə bilməsindən çox şey asılıdır. Yalnız bu məsələləri həll etdikdən sonra, sözün əsl mənasında məşqçi işə başlaya bilər.

Müşahidələr göstərir ki, müasir güləş məşqləri fəal təlimdə olduğu kimi, məşqdə fəal təlim mühiti yaratmağı, məşğul olanlara bilik və bacarıqları məşqçinin rəhbərliyi altında, lakin bir növ, müstəqil şəkildə əldə etməyə yönəltməyi tələb edir. Bu, idmançıda yarışlarda çətin vəziyyətlərdə öz yerində qapanıb qalmağı yox, idrak və əqli fəaliyyətində işgüzarlığı, mütəhərrikliyi problemli situasiyalardan çıxış yolu tapmaq kimi bacarıqları formalaşdırır. Eyni zamanda, məşğul olanlardan məşqçi-müəllimdən eşitdiklərini, öyrəndiklərini mexaniki təkrarlamaq yox, onu şüurlu dərk edərək öz tənqidi təfəkkür süzgəcindən keçirərək dərindən təhlil edib, müstəqil mühakimə yürütməklə, özünün düzgün saydığı əqli nəticəyə gəlməsini tələb edir.

Gənc məşqçi-müəllimlərimizin yüksək dərəcəli idmançılar yetişdirməsi üçün onların öz işlərinə sonsuz həvəsi, mükəmməl biliyi, uşaqlarla işləmək bacarığı, tələbkarlığı və bir çox vacib keyfiyyətlərə malik olmalıdırlar. Məşqçi-müəllimlər unutmamalıdırlar ki, onların uşaqlarla ilk tanışlıqlarından da çox şey asılıdır. Bunu nəzərə alaraq məşqçilər mədəni davranışları, uşaqlara qarşı mehriban münasibətləri ilə onlarda özünə qarşı müsbət duyğular yaratmağa çalışmalıdırlar.

Əlbətdə, bununla da məşqçilər ilk növbətə öz işlərində az da olsa peşə bacarıqlarından istifadə etmiş olurlar.

## “İlk dəfə xalça üzərinə çıxan hər bir uşaq yeni bir aləmə qədəm qoyur”

Əgər məşqçi öz işini müasir tələblər səviyyəsində qurub, təlimin qarşısında duran məqsəd və vəzifələrə tam nail olmaq istəyirsə, o, daha geniş keyfiyyət, bacarıq və vərdişlərə malik olmalıdır. Hər bir məşqçi unutmamalıdır ki, uşağın bu gün məşğul olduğu hər hansı bir idman növü üzrə məşq onun həyatının yalnız bir hissəsidir. Uşaq məşq müddətində obyektə çevrilib, “sıxılmış” vəziyyətdə qalmamalıdır. O, sərbəst, fəal, açıq, hər şeylə maraqlanan, yaradıcı, hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşdırılmalıdır. Bu zamanın tələbidir.

Məşqçi təşəbbüskar olmalı, yeniliklərdən, qeyri-standart fikirləşməkdən qorxmamalı, daim öz üzərində çalışmalıdır. O, yetirmələri ilə birlikdə



öyrənməli, onların müstəqil fəaliyyətlərinin planlaşdırılmasına köməklik etməli, şəxsi yaradıcılıqlarını həmişə qiymətləndirməlidir.

Fiziki yükün verilməsində məşğul olanların potensial imkanları nəzərə alınmalı və hər bir uşağa verilən yük, onun gücü çatacaq dərəcədə olmalıdır. Burada idmaçıların yaşı, cinsi, ümumi fiziki hazırlığı, həmin vaxt onların durumu və başqa amillər nəzərə alınmalıdır. Məşqçi-müəllimlər daim çalışmalıdırlar ki, keçirilən məşqlər uşaqlar üçün maraqlı olsun. Onlar hər məşqdə nəsə bir yenilik tapsınlar və bu yeniliklərdən zövq alsınlar. Bunun üçün məşqçilər bütün yeniliklərlə maraqlanmalı, keçirilən yarışları izləməli, seminarlarda iştirak etməli, yığma komandaların məşqlərində olmalı, məşqlərdə metodiki vasitələrdən istifadə etməli, nəzəri biliklərini daim artırmalıdırlar. Məşqçilər məşqlərin maraqlı keçirilməsi üçün bütün bilik və bacarıqlarını sərf etməklə məşğul olanların maraq dairəsini genişləndirməli, onlarda məşq üçün şən əhval-ruhiyyə yaratmalıdırlar.

Hər bir məşq yüksək səviyyədə təşkil edilməli, lazımi tələbkarlıqla keçirilməli, məşqdə “özünəməxsus” komandalar və düzgün olmayan ifadələr işlədilməməlidir. Verilən komandalar və ifadələr uşaqlarda müsbət emosiyalar yaratmalıdır. Çünki bütün bunlar uşaqların məşqdə fəallığını artırır, onlarda xoş əhval-ruhiyyə yaradır. Əksinə, məşqlərdə eyni ifadələrin və komandaların dönə-dönə, yerli-yersiz işlədilməsi onların əhval-ruhiyyəsini aşağı salır, fəallığını azaldır, idmançının məşq etməyə həvəsi qalmır. Bunun nəticəsində uşaqlar verilən tapşırıqları çox həvəssiz yerinə yetirirlər. Qeyd edim ki, bu problemlər ibtidai hazırlıq qruplarında (İHQ) özünü daha çox biruzə verir. Bu qruplarla işləyən məşqçilərə daha səbirli, uşaqlara qarşı diqqətli və mehriban olmaları məsləhət görülür.

Məşqçilər unutmamalıdırlar ki, ilk dəfə xalça üzərinə çıxan hər bir uşaq yeni bir aləmə qədəm qoyur. Yeni mühit fiziki və psixoloji cəhətdən tam bərkiməmiş uşağa müxtəlif cür təsir göstərə bilər. Belə ki, güləşməyə böyük arzu və istəklə gələn uşaq məşqçinin kiçik bir diqqətsizliyi və yaxud səhvindən tez bir zamanda məşqdən uzaqlaşa bilər. Məhz buna görə də, məşqçilər idmanla yenicə məşğul olmağa başlayan uşaqlara daha çox diqqət göstərməlidirlər.

## Məşqçilər qrupda elə abu-hava yaratmağa çalışmalıdır ki...

Keçirilən məşqlər elə tamamlanmalıdır ki, məşğul olanlar məşqdən sonra özlərini çox yorğun, halsız, sönük hiss etməsinlər, qıvraq və şən əhval-ruhiyyədə olsunlar. Bunun üçün məşqin tamamlayıcı hissəsində qısa müddətli çox az fiziki qüvvə tələb edən, uşaqlarda şən əhval-ruhiyyə yarada bilən mütəhərrik oyunların keçirilməsi məsləhət görülür.

Məşqçi-müəllimlər unutmamalıdırlar ki, bu gün onlardan çoxsahəli bilik və bacarığa sahib olmaq tələb olunur. Bura tərbiyə, idarə, rəhbərlik etmək bacarığı, nitq mədəniyyəti, geniş təfəkkür, dinləmək, müşahidəçilik, möhkəm yaddaş, proqnozvermə bacarığı və s. daxildir. Bütün bunlarla yanaşı, məşqçi-müəllim pedaqoq, psixoloq olmalı, öz işinin nəzəri və praktiki tərəflərini yetərincə bilən, işini ürəkdən sevən, daim yeniliklər axtaran, məsuliyyətli bir insan olmalıdır.

Lakin etiraf etmək lazımdır ki, ənənəvi təlimdən fərqli cəhət kimi göstərdiyimiz fəal təlim metodunun bəzi ünsürlərini ancaq bununla məhdudlaşdırmaq olmaz. Uşaqlara bütün bununla yanaşı, daha yeni yanaşmalara daha müasir bilik, bacarıq və vərdişlər aşılamaq tövsiyə edilir.

İnamla demək olar ki, idman məktəblərində məşqçilərin hər bir uşağa qayğı ilə yanaşması onların valideynlərilə daim əlaqə saxlanması, təhsil aldığı ümumtəhsil məktəbləri ilə idman məktəbləri arasında münasibətlərin, görüləcək bu çətin işin bünövrədən demək olar ki, düzgün qurulmasından xəbər verir.

İdman məktəblərində məşqçinin qarşısında duran əsas məsələlərdən biri də qrupda məşğul olanların hər birinin dərindən öyrənilməsidir desək, səhv etmərik. Bunun üçün hər bir məşqçi ilk gündən uşaqlarla tanışlığında onların sağlamlığını, yaşadığı ünvanı, hansı məktəbdə təhsil aldığını, necə oxuduğunu və bir çox məsələləri bilməsi vacibdir.

Məşqçilər təlimin birinci ilindən qrupda elə abu-hava yaratmağa çalışmalıdır ki, burada hər bir uşaq özünü tənha hiss etməsin, rahat və inamlı hiss etsin, yoldaşları ilə ünsiyyət qurmağı bacarsın, məşqçiyə sual verməkdən çəkinməsin. Məşqçi isə öz növbəsində sadə və təvazökar olmaqla bərabər yetirmələrini də bu ruhda tərbiyə



etməyə çalışmalıdır. Eyni zamanda ən vacib məsələlərdən biri də uşaqların çatışmayan cəhətlərini, buraxdıqları səhvləri, onlara elə bir formada çatdırmalıdır ki, uşaqlar bu iradlardan utanmasınlar, ondan nəticə çıxarmağı bacarsınlar.

Keçirilən məşqlərə gəldikdə isə məşqçi hər bir məşqi biri-birindən maraqlı keçməyə çalışmalı, uşaqları düzgün qiymətləndirməli, hər bir uşağın sevimlisinə çevrilməyə çalışmalıdır.

Əlbətdə, bunu da unutmaq olmaz ki, bütün sahələrdə olduğu kimi idman məşqlərində də tələbkarlıq vacib məsələlərdəndir. Lakin məşqçilər onu da unutmamalıdırlar ki, onlar tələbkarlıqları ilə bərabər güzəştə getməyi də bacarmalıdırlar. Təkcə onu demək kifayətdir ki, bu tədrisdə şüurlu dərk etmədə vacib vasitə sayıla bilər.

Xüsusilə qeyd etmək lazımdır ki, həyatın bütün sahələrində olduğu kimi, idmanda da əsas məqsəd məşğul olanların hər birinin sağlamlığıdır. Əlbətdə bunun üçün uşaqların gündəlik həyat rejimi və bu rejimə hər bir uşağın əməl etməsi tövsiyə edilir. Bunlara isə öz növbəsində məşqçilərin nəzarət etməsi vacibdir.

Hər bir idman məktəblərində eləcə də orada işləyən məşqçilərin tədbirlər planında valideynlərlə görüşlər və açıq məşqlərin keçirilməsi planlaşdırılmalıdır. Əlbətdə unutmaq olmaz ki, məşhur idmançılarla (Avropa, dünya, Olimpiya çempionları) uşaqların maraqlı görüşlərinin təşkil edilməsi, onlarla ünsiyyətdə olması, birlikdə şəkil çəkdirmələri, onlardan avtoqraf alması, hər bir uşağın həyatında unudulmaz anlar kimi yaddaşlarında qalır.

UGİM-nin əsasnaməsinə əsasən məktəbdə məşğul olan uşaqlar tədris ili ərzində iki dəfə həkim müayinəsindən keçirilməlidir və bu müayinənin nəticəsi hər bir idmançının qeydiyyat kitabçasında qeyd edilməlidir.

Bütün bu sadaladığımız keyfiyyət, bacarıq və tövsiyələrə yiyələnmədən məşqi tələb olunan səviyyədə təşkil edib keçmək və yüksək dərəcəli idmançılar hazırlamaq mümkün deyil. Bunun ancaq bir yolu var; çalışdığınız bu gözəl sənəti ürəkdən sevmək, gündəlik öyrədərək öyrənmək, görüb götürmək, təcrübə toplamaq və gündəlik mütaliə etmək.



*Hümbət Cavadov,*
*sərbəst güləş üzrə SSRİ İdman Ustası*

## Vətən müharibəsinin şəhidi Oktay Ağabəyovun xatirəsinə şahmat turniri keçirilib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində (BŞGİBİ) Vətən müharibəsi şəhidi "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuş şəhid Oktay Ağabəyovun xatirəsinə həsr olunmuş onlayn şahmat turnirinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə şəhid Oktay Ağabəyovun anası Əlvadə xanım, atası Baxşəli Ağabəyov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, sektor müdiri Gündüz Vəliyev, turnirin baş hakimi Fidan Talıbova iştirak ediblər.

Mərasimdə çıxış edən Aydın Yusifov Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşayacağını bildirib. O qeyd edib ki, bundan sonra da Baş İdarə tərəfindən şəhidlərimizin əziz xatirəsinə həsr



edilmiş silsilə tədbirlərin və müxtəlif turnirlərin keçiriləcəyi planlaşdırılıb.

Şəhidin atası Baxşəli Ağabəyov övladının xatirəsini əziz tutduqlarına görə hamıya minnətdarlığını bildirib. O bildirib ki, şəhidlərin davamçısı varsa, onların xatirələri hər yerdə anılırsa, deməli onlar ölməyib, ürəklərdə yaşayırlar.

Sonda turnirdə fərqlənənlər Baş İdarə tərəfindən medallar və xatirə diplomları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, yarışda oğlanlar arasında Süleyman Süleymanlı birinci, Allahverdi Həmidov ikinci, Amin Qurbanov üçüncü yerləri tutublar.

Qızlar arasında isə Xanım İsmayılova, Şəms Fərzəli və Nərgiz Rəşidova ilk üç yerə layiq görülüblər.

## "Dəmir yumruq" komandası birinci oldu

Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin (BŞGİBİ) birgə təşkilatçılığı ilə keçirilən yeniyetmələr arasında "Böyük Zəfər" məhəllələrarası mini futbol turnirinin Suraxanı turuna yekun vurulub.

Rayondakı abad məhəllələrdə keçirilən yarışda "Fatehlər", "Qələbə", "Laçın", "Dəmir yumruq", "Ağdam", "Şuşa", "Zəfər" və "Füzuli" adını daşıyan 8 komanda iştirak edib.

İlkin görüşlərdən sonra final mərhələsinə 4 komanda vəsiqə qazanıb. Finalda "Dəmir Yumruq" komandası "Zəfər"ə qalib gələrək birinci yeri tutub. Üçüncü yerə isə "Laçın" komandası çıxıb.

Beləliklə, yarışların Bakı turunda Suraxanı rayonunu "Dəmir yumruq" komandası təmsil edəcək.

Rayon turunun qalibləri fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

## Sumqayıtda "Hədəf" adlı tir atıcılığı turniri keçirilib

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə şəhərin müxtəlif gənclər təşkilatlarını təmsil edən könüllülərdən ibarət komandalar arasında "Beynəlxalq Könüllülər Günü"nə həsr olunmuş "Hədəf" adlı tir atıcılığı turniri keçirilib. Yarışın məqsədi "Beynəlxalq Könüllülər Günü"nün qeyd edilməsi, Şanlı Zəfər tariximizin geniş təbliği, gənclərin çağırışa qədər hərbi hazırlıq səviyyəsinin yüksəldilməsi, vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəsi və asudə vaxtlarının səmərəli təşkilidir. Ümumilikdə 9 komandanın təmsil olunduğu yarışda iştirakçılar hədəfi dəqiq nişan alma mübarizəsində öz bacarıqlarını sınayıblar. Yarışın yekun nəticəsində əsasən I yeri Sənaye və



Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin "Şahinlər" komandası tutub. İkinci və üçüncü yerlərə isə müvafiq olaraq, 15 nömrəli tam orta məktəbin "Qalib əsgər" və "Snayper" komandaları layiq görülüb. Qalib komandalar Baş İdarənin fəxri fərman, medal və hədiyyələri ilə təltif ediliblər.

— Müsahibə —

# "Şuşanın "Qala" futbol komandasını bərpa edib, yarışlara qoşulacağıq"



***Ötən ay Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın qədim, mədəni və böyük strateji əhəmiyyətə malik şəhəri olan Şuşanın işğaldan azad edilməsindən bir il ötdü. 2020-ci il noyabrın 8-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad olunması müjdəsini verərək xalqımıza böyük sevinc, qürur və fəxarət bəxş etdi. Xalqımız 30 ilə yaxın bir zaman ərzində həsrətində olduğu doğma Şuşa şəhərinin azad edilməsini böyük coşğu ilə qarşıladı. Şuşa şəhərinin işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı. Artıq şuşalıların bu müqəddəs torpaqlara səfərləri də təşkil olunur. Cıdır düzünə səfər edən Şuşa sakinləri 29 ildən sonra yenidən doğma torpaqları öz gözləri ilə gördülər. Onların arasında Şuşada uşaq futbol komandasının yaradıcısı, tanınmış veteran idmançı Əbülqasım Novruzov da var idi. Şuşa səfəri ilə bağlı öz xatirələrini və təəssüratlarını bölüşən Əbülqasım müəllim bu səvincli günləri onlara yaşatdığına görə Azərbaycan Prezidenti İlham Əliyevə və Azərbaycan Ordusuna minnətdarlığını bildirdi.***



***- Əbülqasım müəllim, təcavüzkar Ermənistanın 1988-ci ildən başladığı haqsız və ədalətsiz müharibə xalqımızın başına olmazın müsibətlər gətirdi. 20 faiz torpağımız işğal olundu, bir milyon soydaşımız doğma yurdlarından didərgin düşdülər.***

- 30 ilə yaxın bir müddətdə doğma yurdlarından didərgin düşən qaçqın və məcburi köçkünlərimiz çox əziyyət çəkdilər. Amma onların öz ev-eşiklərinə dönəcəyi gü-



nün yetişəcəyinə inamları bir an da olsun itmədi. Bu inam axır ki, reallaşdı. Azərbaycan Ordusu sübut etdi ki, türkün polad iradəsini heç bir qüvvə əyə bilməz. Daim azadlığı sevən türk xalqı uzun müddət qara qüvvələrə qarşı qanlı savaşlar aparmış və istəyinə nail olmuşdur. Doğma torpağa, ana yurda, vətənə bağlılıq hissi bizə kökümüzdən gəlir. Türk övladı üçün vətən duyğusu, torpaq sevgisi, yurd istəyi bütün hisslərdən güclüdür. Türk üçün bircə müqəddəs varlıq var, o da Vətəndir.

***- Hazırda güclü dövlət konsepsiyasını reallığa çevirən Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələri sırasında yer alıb.***

- Tamamilə doğru deyirsiniz, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bu 18 il ərzində ölkədə quruculuq işləri geniş vüsət almış, cəmiyyət həyatının bütün sahələrini əhatə edən köklü islahatlar həyata keçirilmişdir. Azərbaycan dövləti 18 il ərzində uğurlu islahatlara, demokratik dəyərlərə, humanizmə söykənən sosial siyasətlə dünyanın ən müasir ordularından birini formalaşdırdı. Nəticədə tarixin qəhrəmanlıq səhifəsinə imza atan və adını bəşər tarixinin hərb sənətinə qızıl hərflərlə yazan müzəffər Ali Baş Komandan öz xalqının arzularını gerçəkləşdirməklə bərabər öz həmkarlarına örnək oldu. Cənab İlham Əliyevin düşünülmüş uğurlu siyasəti, torpaqlarımızın işğaldan azad edilməsinə və dünya dövlətləri tərəfindən ədalətli dəstəklənməsinə, işğalçının işğalçı kimi tanınmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyəti müsbət nəticələrini verməyə başladı. Xalqın sabaha inamı daha da artdı, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaq həvəsi gücləndi.

***- Azərbaycan torpaqlarının işğalçılardan təmizlənməsindən bir il ötdü. 44 günlük savaşdan sonra Müzəffər Ordumuz "işğal" sözünü "Zəfər" kəlməsi ilə əvəzlədi. Hətta Bakıda möhtəşəm Zəfər paradı da keçirildi ki, bu da millətimizin ruhunu özünə qaytardı. Bu qürurverici hal, şərəflə yazılan bir tarix oldu.***

- Öncə deyim ki, XXI əsrdə Allah bəlkə də bizə heç zaman verməyəcəyi bir şans yaratdı. Şans yaratdı ki, biz dünya dövlətləri arasında nəyə qadir olduğumuzu sübut edək. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi sayəsində Azərbaycanın rəşadətli ordusu 44 günün içərisində 30 ilə yaxın bir müddətdə düşmənlərin tapdağı altında qalan şəhər və kəndlərimizi işğaldan azad etdi.

***- Nəhayət, növbə 28 il idi ki, həsrətini çəkdiyimiz Şuşaya çatdı. Şükürlər olsun ki, ötən ilin noyabr ayının 8-də illərin bu ayrılığına, bu hicranına son qoyuldu. Biz hamımız sevindik, çünki Şuşa hamımızın qibləgahı, hamımızın ruhunun məkanıdır.***

- Doğru deyirsiniz, Şuşa bizim hər yerdən görünən ziyarətgahımızdır. Bu istək, bu sevinc, bu göz yaşları da Şuşamıza sonsuz məhəbbət, tükənməz sevgi əlamətidir. Hamımızın dincliyimiz, rahatlığımız, ruhumuz oradadır. Mən Şuşadan müqəddəs yer tanımıram. İndi Azərbaycanın günəşi Şuşadan doğur.

***- Eşitdiyimizə görə Şuşanı ziyarət edən ziyalılarımızın arasında siz də olmusunuz? Şuşaya qədəm qoyarkən hansı hissləri keçirdiniz və ilk olaraq hara getdiniz?***

- Bu hissləri sözlə ifadə etmək mümkün deyil. Keçirdiyim hissləri təsvir etmək üçün sözün qüdrəti qarşısında acizlik çəkirəm. O ki, qaldı ilk dəfə hara getdiyimə. Fikrim bu idi ki, ilkin olaraq qəbristanlığa gedib şəhidlərimizə dua oxuyum. Amma düşmən düşmənliyini bildirmişdi. Qəbiristanlığımız yaman günə qoyulmuşdu. Öz evimə getdim. Əvvəlcə tanımadım. Evim xarabazara çevrilmişdi. Başımı evimin divarına söykəyib ağladım.

***- Müsahibələrinizin birində deyirdiniz ki, Şuşaya gedən kimi Cıdır düzündə futbol oynayacaqsınız.***

- Bəli, demişdim, amma alınmadı. Özümlə apardığım topları, idman geyimlərini və idman ləvazimatlarını orada yaşayan uşaqlara payladım.

***- Şuşaya əbədi qayıdışdan sonrakı işiniz barədə nə deyə bilərsiz?***

- Şuşada işğaldan əvvələ qədər idman inkişaf edirdi. Şuşanın futbol, voleybol, həndbol, güləş, sambo və digər idman növləri üzrə yetərincə güclü idmançıları olub. Qeyd etdiyim bu idman növləri hər zaman Şuşada sevilib. Doğma yurdumuza qayıtdıqdan sonra əvvəlki şuşalı günlərimizdə olduğu kimi, uşaq futbolunun inkişafını davam etdirəcəyəm. Şuşanın "Qala" futbol komandasını bərpa edib, respublikamızda yarışlara qoşulacağıq. Şuşaya qayıdışımız möhtəşəm olacaq. İnşallah!

***- Əbülqasım müəllim, Sizə arzularınınızın tezliklə gerçəkləşməsini diləyirik.***

- Sağ olun.

***Faiq Şükürbəyli***

# F U T B O L

## Çempionlar Liqası: təkrar püşk və yeni rəqiblər




Dünən UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin püşkü yenidən atılıb. Qitənin ən nüfuzlu klub turnirində qrup mərhələsinə vəsiqə əldə edən 16 komanda püşkdə 8 cütlükdə qərarlaşıb.

Reqlamentə əsasən qrup qalibi olan komandalar ikinci yerin sahibləri ilə qarşılaşacaq. İlk oyunlar səpələnməmişlər səbətində yer alan ikinci yeri tutmuş komandaların stadionlarında baş tutacaq. Bu mərhələdə eyni ölkə təmsilçiləri və eyni qrupdan çıxan komandalar üz-üzə gələ bilməyəcək.

Qeyd edək ki, tədbir gün ərzində ikinci dəfə baş tutub. Buna püşk zamanı buraxılan kobud səhv səbəb olub. "Mançester Yunayted" və "Liverpul"un şarlarını səhv salan UEFA "Vilyarreal"la "Atletiko"nun mümkün rəqiblərinin siyahılarında xətalara yol verib. Məhz bu səbəbdən püşkatma 3 saatdan sonra yenidən təkrarlanıb.

Xatırladaq ki, 1/8 finalın ilk görüşləri 2022-ci il 15-16 və 22 - 23 fevralda, cavab qarşılaşmaları 8-9 və 15-16 martda oynanılacaq.

**Püşkatmanın nəticələri aşağıdakı kimidir:**

***UEFA Çempionlar Liqası***

**1/8 final mərhələsi**

"Zaltsburq" (Avstriya) - "Bavariya" (Almaniya)
"Sportinq" (Portuqaliya) - "Mançester Siti" (İngiltərə)
"Benfika" (Portuqaliya) - "Ayaks" (Niderland)
"Çelsi" (İngiltərə) - "Lill" (Fransa)
"Atletiko" (Madrid, İspaniya) - "Mançester Yunayted" (İngiltərə)
"Vilyarreal" (İspaniya) - "Yuventus" (İtaliya)
"İnter" (İtaliya) - "Liverpul" (İngiltərə)
PSJ (Fransa) - "Real" (İspaniya)

## Azərbaycan Kuboku: 1/4 finalın bütün iştirakçıları məlum oldu

Futbol üzrə Azərbaycan Kuboku uğrunda yarışların 2021-2022-ci il mövsümünə start verilib. Yarışın açılış matçında Premyer Liqa təmsilçisi "Səbail" birinci divizionda çıxış edən "Zaqatala"nın qonağı olub. Qarşılaşma paytaxt təmsilçisinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.



Matçın 48-ci dəqiqəsində Mirsayib Abbasov qonaqları hesabda önə keçirib. Oyunun 57-ci dəqiqəsində Roini İsmayılov tarazlığı bərpa edib. On dəqiqə sonra Əfran İsmayılov penaltini dəqiq yerinə yetirib. Mirsayib Abbasov 90+2-ci dəqiqədə özünün ikinci, komandasının üçüncü qoluna imza atıb.

"Dənizçilər" dörddəbir finalda "Ziro" ilə üz-üzə gələcək.

Günün digər oyununda I Divizion təmsilçisi MOİK və Premyer Liqada mübarizə aparan "Qəbələ" komandaları üz-üzə gəlib. "Dalğa Arena"da keçirilən oyunda görüş qonaqların qələbəsi ilə yekunlaşıb - 1:2. Hesabı 34-cü dəqiqədə meydan sahiblərinin hücumçusu İlham Allahverdiyev açıb. "Qəbələ" bərabərlik qolunu 55-ci dəqiqədə vurmağa müvəffəq olub. 75-ci dəqiqədə Elşən Veysov qırmızı vərəqə alaraq, "hərbçilər"i azlıqda qoyub. "Qırmızı-qaralar" say üstünlüyündən 88-ci dəqiqədə yararlanıb. Ülvi İsgəndərov qələbə topunu vuraraq, "Qəbələ"ni 1/4 finala çıxarıb.

Əyalət təmsilçisinin növbəti mərhələdəki rəqibi "Sumqayıt" klubu olacaq.

Mərhələnin üçüncü görüşündə Azərbaycan kubokunun sonuncu qalibi "Keşlə" birinci divizion təmsilçisi "Qaradağ Lökbatan"ı qəbul edib. Qarşılaşma meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Görüşdə hesabı qonaqlar açıblar. 7-ci dəqiqədə Elnur Səmədov fərqlənib. Meydan sahibləri 32-ci dəqiqədə Samir Abdullayevin qolu ilə hesabı bərabərləşdirib. 58-ci dəqiqədə isə "Keşlə" komandası Rəhman Hacıyevin sayəsində qələbə qolunu vurub. "Keşlə" komandası dörddəbir finalda "Qarabağ" ilə üz-üzə gələcək.

Səkkizdəbir final mərhələsinin sonuncu görüşündə "Sabah" klubu "Kəpəz"i qəbul edib. Qarşılaşma paytaxt klubunun 3:0 hesablı qələbəsi ilə başa çatıb. "Sabah"ın heyətində qolları 57 və 61-ci dəqiqələrdə Coy-Lens Mikels, 90+2-ci dəqiqədə isə Kamran Quliyev vurub.

"Sabah"ın növbəti mərhələdəki rəqibi "Neftçi" klubu olacaq. Bu mərhələnin görüşləri fevralın 1-də və 2-də, cavab görüşləri isə 12-də və 13-də keçiriləcək.

## *Avropa Liqasında pley-offun cütləri müəyyənləşdi*

Dekabrın 13-də İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında futbol üzrə UEFA Avropa Liqasının 2021-2022-ci il mövsümünün onaltıdabir final mərhələsinin püşkü atılıb. Qrup qaliblərinin birbaşa 1/8 finala yüksəldiyi Avropanın ikinci dərəcəli klub turnirində pley-offun 8 cütü müəyyənləşib. Bu mərhələdə 16 komanda çıxış edəcək. Qrupunda ikinci yeri tutanlar Çempionlar Liqasının qruplarında üçüncü yeri tutmuş komandalarla üz-üzə gələcək. Onaltıdabir final mərhələsində UEFA Avropa Liqasında eyni qrupda yer almış komandalar, həmçinin eyni ölkənin təmsilçiləri rəqib ola bilməzlər.

Qeyd edək ki, UEFA Avropa Liqasının pley-off mərhələsinin ilk oyunları 2022-ci il fevralın 17-də, cavab qarşılaşmaları isə bir həftə sonra keçiriləcək. Pley-off mərhələsinin qalibləri səkkizdəbir finalda UEFA Avropa Liqasının qrup mərhələsində qruplarda birinci yerləri tutan səkkiz komanda ilə qarşılaşacaqlar. Qitənin ən nüfuzlu ikinci klub turnirinin final görüşü Sevilyadakı "Ramon Sançes Pisxuan" stadionunda oynanılacaq.

**Püşkatmanın nəticələri aşağıdakı kimidir:**

**UEFA Avropa Liqası**

**Pley-off mərhələsi**

"Sevilya" (İspaniya) - "Dinamo" (Xorvatiya)
"Atalanta" (İtaliya) - "Olimpiakos" (Yunanıstan)
"Leypsiq" (Almaniya) - "Real-Sosyedad" (İspaniya)
"Barselona" (İspaniya) - "Napoli" (İtaliya)
"Zenit" (Rusiya) - "Betis" (İspaniya)
"Borussiya" (Dortmund, Almaniya) - "Reyncers" (Şotlandiya)
"Şerif" (Moldova) - "Braqa" (Portuqaliya)
"Porto" (Portuqaliya) - "Latsio" (İtaliya)

## *İspaniyalı futbolçu öz vətənində məşqçilik edəcək*




Ağdamın "Qarabağ" klubunun sabiq futbolçusu Miçel Madera məşqçilik fəaliyyətinə başlayıb. 36 yaşlı yarımmüdafiəçi ölkəsində atasının prezident olduğu "Lenense"də məşqçi kimi fəaliyyət göstərir.

İspaniyalı oyunçu futbolçu karyerasını bu ilin mart ayında bitirib.

O, 2015-2020-ci illərdə "Qarabağ"da çıxış edib. Miçel bu müddət ərzində 159 oyunda 30 qol vurub.

## Ronaldonun rekordu təkrarlandı



Niderlandın "Ayaks" klubunun futbolçusu Sebastyen Alle İngiltərənin "Mançester Yunayted" komandasında çıxış edən Kriştianu Ronaldonun rekordunu təkrarlayıb. 27 yaşlı hücumçu buna Çempionlar Liqasının qrup mərhələsindəki bütün matçlarda fərqlənməklə nail olub.

Forvard son olaraq doğma meydanda Portuqaliyanın "Sportinq" komandasına 4:2 hesabı ilə qalib gəldikləri altıncı tur görüşündə hesabı açıb. O, hazırkı mövsümdə 10 qolla yarışın bombardiridir.

Qeyd edək ki, "Ayaks" C qrupunu 18 xalla birinci pillədə başa vurub və bütün görüşlərdə qələbə qazanmaqla Niderland futbolu tarixində ilkə imza atıb.

## *"Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə növbəti tədbir Şəmkirdə keçirilib*



AFFA-nın və Şəmkir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə növbəti tədbir keçirilib. Rayonun Yuxarı Çaykənd kəndində keçirilən tədbirdə ümumilikdə 50 məktəbliyə futbola marağı artırmaq məqsədi ilə idman geyimləri və futbol topları verilib.

Tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, deputat Sabir Hacıyev, Milli Məclisin İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri Rüstəm Mahmudov, Şəmkir Rayon Gənclər və İdman İdarəsinin rəisi Emin İsmayılov, Təhsil İdarəsinin müdiri Qüdrət Əliyev və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

## Məşhur hücumçu federasiya prezidenti seçildi

"Real Madrid", "Barselona" və "Anji" futbol komandalarının sabiq hücumçusu Samuel Eto O Kamerun Futbol Federasiyasının prezidenti seçilib.

Bu barədə federasiyanın mətbuat xidməti məlumat yayıb. 40 yaşlı futbolçunun karyerası 2019-cu ildə başa çatıb.

Samuel Eto O karyerası ərzində İspaniyanın "Barselona", "Real Madrid" və "Malyorka", İngiltərənin "Çelsi", İtaliyanın "İnter", Rusiyanın "Anji" və Türkiyənin "Konyaspor" kimi komandalarında çıxış edib. O, üç dəfə İspaniya çempionu və Çempionlar Liqasının qalibi, iki dəfə - İspaniya və İtaliya kuboklarının, İspaniya Superkubokunun sahibi, bir dəfə İtaliya çempionu, İtaliya Superkubokunun və klublararası dünya çempionatının qalibi olub.

Kamerun millisinin tərkibində 118 oyun keçirib və 56 qol vurub ki, bu da milli komandanın tarixində ən yaxşı göstəricidir. Samuel Eto O dörd dəfə Afrikada ilin ən yaxşı oyunçusu seçilib.

# Dünya idmanı





## Məşhur tennisçilər raketkalarını satırlar

Məşhur tennisçilər öz raketkalarını xeyriyyə məqsədi ilə satışa çıxarıblar. Daniil Medvedev, Andrey Rublyov, Viktoriya Azarenka, Simona Halep və digər tennisçilərin iştirak etdiyi aksiyadan əldə olunan gəlir xərçəng xəstəliyindən əziyyət çəkən məşqçi Kristiana Şnayderin müalicəsinə xərclənəcək.

Xatırladaq ki, K.Şnayder məşhur Xorvatiya raket ustası Borna Çiliçin sabiq məşqçisi olub. K.Şnayder 2 il əvvəl səhhətində problemlər səbəbindən müalicəyə başlasa da, bir müddət əvvəl qarın nahiyəsindəki kəskin ağrılar nəticəsində xəstəxanaya yerləşdirilmişdi. Müayinə nəticəsində onun qaraciyərində xərçəng xəstəliyi aşkarlanıb.



## "Sambaçı" çempionluq titulunu qorudu

Braziliyalı qarışıq döyüş ustası Çarlz Oliveyra UFC 269-un əsas qarşılaşmasında amerikalı Dastin Porye ilə qarşılaşıb. Las-Veqasda təşkil olunan döyüşdə Çarlz Oliveyra qalib gələrək, yüngül çəkidə çempionluq titulunu ilk dəfə uğurla müdafiə edib. D.Porye ilk raundda daha üstün görünsə də, döyüşün növbəti hissəsində Oliveyra təşəbbüsü ələ keçirib. Braziliyalı döyüşçü üçüncü raundda boğma fəndi ilə qələbə qazanıb.

Qeyd edək ki, bu, Ç.Oliveyranın ardıcıl onuncu qələbəsi olub.

## "Ferrari" və "Alfa Romeo"nun adları dəyişdirildi

Formula 1 üzrə dünya çempionatında mübarizə aparan "Ferrari" və "Alfa Romeo" komandalarının adlarında dəyişiklik edilib. Hazırda rəsmi olaraq "Scuderia Ferrari Mission Winnow" adı ilə mübarizə aparan İtaliya komandası sadəcə, "Scuderia Ferrari" adlanacaq. 2018-ci ildə "Filipp Morris İntenational" tütün şirkəti ilə müqavilə imzalayan "Ferrari" məcburiyyətdən belə bir addım atmaq qərarına gəlib. Artıq avtodromlarda tütün şirkətlərinin reklamı ləğv edilir.

Son bir neçə ildir digər komandalar da bolidlərindən zərərli vərdişlərin təbliğini əks etdirən yazıları yığışdırır. "Alfa Romeo Racing ORLEN" komandası isə adında cüzi dəyişiklik edib. Bundan sonra komanda "Alfa Romeo F1 Team ORLEN" adlandırılacaq.

## Ən çox gəlir əldə edən qadın tennisçilər

Karyerası ərzində ən çox gəlir əldə edən qadın tennisçilərin siyahısı açıqlanıb. "Böyük dəbilqə" seriyalı turnirlərin 23 qat qalibi Serena Uilyams 94 milyon 518 min 971 dollarla cədvələ başçılıq edir. Serenanın bacısı Vinus isə ikinci pillədə qərarlaşıb. O, karyerası ərzində 42 milyon 280 min 541 dollar qazanıb.

Üçüncü yerdə isə 38 milyon 777 min 962 dollarla Mariya Şarapova qərarlaşıb.

İlk onluqda Simona Halep, Karolin Voznyatski, Viktoriya Azarenka, Petra Kvitova, Anjelik Kerber, Aqneşka Radvanska və Svetlana Kuznetsova yer alıblar.

olimpnews.az - sizin saytınız




## Maqnus Karlsendən "şahmat tacını" almaq mümkün olmadı

Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində norveçli Maqnus Karlsen ilə Rusiya təmsilçisi Yan Nepomnyaşi arasında şahmat tacı uğrunda dünya çempionatında 11-ci turun oyunları keçirilib.

Növbəti turda rusiyalı şahmatçını məğlub edən dünya çempionu 7,5:3,5 hesablı üstünlük əldə edərək, vaxtından əvvəl dünya çempionatının qalibi olub.

Xatırladaq ki, Maqnus Karlsen 2013-cü ildə Hindistan təmsilçisi Vişvanatan Anand üzərində qələbə qazanaraq dünya şahmat tacına yiyələnib. O, 2014-cü ildə Rusiyanın Soçi şəhərində V.Anand, 2016-cı ildə ABŞ-ın Nyu-York şəhərində rusiyalı Sergey Karyakin və iki il sonra isə Böyük Britaniyada ABŞ təmsilçisi Fabiano Karuananı məğlub edərək titulunu qoruyub.

## Kamerunlu həndbolçular "yoxa çıxdılar"

Kamerun millisinin dörd həndbolçusu İspaniyanın Valensiya şəhərinin yaxınlığındakı Liriyada keçirilən dünya çempionatında yoxa çıxıb. Bunlar Ameli Sevani Mvua, Appolin Mişel Abena Ekobena, Yasmin Yotçum və Jodel Klaris Macufanqdır. Abena Ekoben istisna olmaqla, digərləri dekabrın 3-də Rusiyaya qarşı mundialın qrup matçında iştirak ediblər. Oyunçular komandanın qaldığı hoteldə səhər saat 7:30-da koronavirus testinə getməyiblər. Həndbolçuları sonuncu dəfə dekabrın 8-də hotelin qarşısında taksiyə minən zaman görüblər. İspaniya polisi öz komandasının düşərgəsini tərk edərək qaçan dörd kamerunlu həndbolçunu axtarır. Polisdən bildirilib ki, onların öz əşyalarını götürərək qaldıqları hoteli heç kimə xəbər etmədən tərk etməyi onu deməyə əsas verir ki, həndbolçular ölkələrinə qayıtmaqdan imtina edib və İspaniyada qalmağı üstün tutublar.

Qeyd edək ki, Kamerun seçməsi dekabrın 3-də Rusiyaya 40:18 hesabı ilə uduzub.



Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19